Əlixan Musayev

# Sələfilər



**Redaksiya heyəti:**

**M. Qarayev**

**A. Salehli**

**M. Kərim**

**F. Allahverdiyev**

**E. Rüstəmov**

﴿وَٱلسَّٰبِقُونَ ٱلۡأَوَّلُونَ مِنَ ٱلۡمُهَٰجِرِينَ وَٱلۡأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم
بِإِحۡسَٰنٖ رَّضِيَ ٱللَّهُ عَنۡهُمۡ وَرَضُواْ عَنۡهُ وَأَعَدَّ لَهُمۡ جَنَّٰتٖ تَجۡرِي
تَحۡتَهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدٗاۚ ذَٰلِكَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ﴾

**"*İslamı* ilk əvvəl qəbul etmiş mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da *Allahdan* razıdırlar. *Allah* onlar üçün *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur."**

*Quran, "ət-Tovbə" surəsi, 100-cü ayə.*

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**

# Müqəddimə

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyir, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar və kimi də azdırsa, onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Bizi müsəlman kimi yaradan, doğru yola yönəldərək bizə hidayət verən, Peyğəmbərimizin ﷺ sünnəsini yaşamaqda bizə kömək edən, aləmlərin Rəbbi, haqq-hesab gününün Hökmdarı olan Uca Allaha şükürlər və həmd-sənalar olsun!

Dəyərli oxucular!

Bu kiçik həcmli kitabı yazmaqda məqsədimiz, günümüzdə çox tez-tez rast gəlinən və bir çoxları tərəfindən yanlış anlaşılan "sələf" kəlməsinin həm lüğəti, həm də dinimizdəki şəri mənasına aydınlıq gətirməkdir.

İlk öncə qeyd edək ki, bu kəlmə heç də bəzilərinin düşündüyü kimi dilimizə yeni əlavə olunmayıb. Azərbaycan ədibləri bu kəlmədən hər zaman öz yaradıcılıqlarında istifadə etmişlər.

İnanırıq ki, bu kitabı mütaliə edən dəyərli oxucularımız sələfiliyin heç də dinimizdə məzhəb və ya firqə olmadığını anlayacaq, İslam dininin ədəb və qaydalarını həyatının meyarı hesab edən, Allah və Rəsuluna ﷺ iman gətirmiş, gündəlik beş vaxt namazlarını qılan, oruc tutan, imkanı daxilində həcc edən və zəkat verən hər bir müsəlmanın özünü mənsub etdiyi məzhəbindən asılı olmayaraq, sələflərdən olduğunu dərk edəcəklər.

Bir çoxlarının məqsədyönlü şəkildə sələfiləri xəvaric və bu kimi azğın firqələrlə oxşar göstərməyə çalışması çox yanlış bir əməldir. İnanırıq ki, ərsəyə gətirdiyimiz bu kiçik əməyimiz hər zaman haqqı batildən ayırd etməyi bacaran dəyərli oxuculara bu mövzu ilə bağlı yanlış anlaşılanların aydın olmasına yardım edəcək.

Allahdan istəyimiz budur ki, bu kitabı bərəkətli və faydalı etsin. Əzəmətli Ərşin Rəbbi olan Qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizləri, Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin! Həqiqətən də, Allah hər şeyi eşidəndir, duaları qəbul edəndir. Peyğəmbərimizə, onun əhli-beytinə, onun səhabələrinə və Qiyamət gününədək onların ardıcıllarına Allahın salavatı və salamı olsun!

# "Sələf" sözünün anlamı

Lüğəti mənada, hər hansı bir sahədə, işdə, mövqedə fəaliyyəti digərindən daha öncə olmuş, yaxud öncə yaşamış adama "sələf" deyilir.[1] Bu mənanı ifadə edən rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ ölüm yatağında ikən qızı Fatiməyə رضي الله عنها:

(( فَإِنَّهُ نِعْمَ السَّلَفُ أَنَا لَكِ ))

"Mən sənin üçün necə də gözəl sələfəm!"– demişdir.[2]

Quranda da bu xüsusda belə buyurulur:

﴿ فَجَعَلْنَٰهُمْ سَلَفًا وَمَثَلًا لِّلْءَاخِرِينَ ﴾

**"Biz onları sonra gələnlərə sələf və ibrət etdik."**[3]

Bu ayədə Fironun və onun tərəfdarlarının sonrakı nəsillər üçün ibrət edildiyi xəbər verilir.[4]

Şəri mənada "sələf" deyildikdə isə, Peyğəmbər ﷺ və onun səhabələri رضي الله عنهم, sonra da onların yolunu tutub gedən möminlər qəsd edilir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Ən xeyirli insanlar mənim dövrümdə yaşayanlar, sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir."**[5]

Qeyd etmək lazımdır ki, bu hədisdə o dövrlərdə yaşayan möminlər – səhabələr رضي الله عنهم, tabiinlər və ətbaut-tabiinlər qəsd

---

[1] Lisan əl-Arab, 9/158; ən-Nihayə, 2/390.

[2] Səhih əl-Buxari, 3624, 6285, 6286; Səhih Muslim, 2450; Sunən ən-Nəsai əl-Kubra, 8368; Sunən İbn Macə, 1621; Musnəd imam Əhməd, 6/282.

[3] "əz-Zuxruf" surəsi, 56.

[4] Təfsir İbn Kəsir, 7/232.

[5] Səhih əl-Buxari, 2652; Səhih Muslim, 7/184-185; Sunən İbn Macə, 2/63-64; Musnəd imam Əhməd, 1/378.

edilir. Belə ki, həmin dövrlərdə xəvariclər, qədərilər, rafizilər, mötəzililər və cəhmilər kimi bidət əhli də yaşamışlar. Onlar əsla əməlisaleh sələflər sayılmırlar. Yalnız Allahın razı qaldığı, Allaha və Rəsuluna ﷺ tabe olan möminlər əməlisaleh sələflər sayılırlar. Bu xüsusda uca Allah belə buyurur:

﴿وَٱلسَّٰبِقُونَ ٱلْأَوَّلُونَ مِنَ ٱلْمُهَٰجِرِينَ وَٱلْأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم بِإِحْسَٰنٍ رَّضِىَ ٱللَّهُ عَنْهُمْ وَرَضُوا۟ عَنْهُ وَأَعَدَّ لَهُمْ جَنَّٰتٍ تَجْرِى تَحْتَهَا ٱلْأَنْهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدًا ۚ ذَٰلِكَ ٱلْفَوْزُ ٱلْعَظِيمُ﴾

**“*İslamı* ilk əvvəl qəbul etmiş mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da *Allahdan* razıdırlar. *Allah* onlar üçün *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur.”**[1]

Bu ayədən Allahın məhz səhabələrdən رضي الله عنهم və Qiyamətədək onların ardınca gedənlərdən razı olduğu aydın başa düşülür. Onlardan başqasının yolunu tutub gedənləri isə Cəhənnəm odu gözləyir. Bu xüsusda uca Allah belə buyurur:

﴿وَمَن يُشَاقِقِ ٱلرَّسُولَ مِنۢ بَعْدِ مَا تَبَيَّنَ لَهُ ٱلْهُدَىٰ وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ ٱلْمُؤْمِنِينَ نُوَلِّهِۦ مَا تَوَلَّىٰ وَنُصْلِهِۦ جَهَنَّمَ ۖ وَسَآءَتْ مَصِيرًا﴾

**“Kim özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan ayrı bir yolla gedərsə, onu**

---

[1] “ət-Tovbə” surəsi, 100.

**üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir.”**[1]

Bu ayədə möminlər deyildikdə səhabələr ﷺ və onların yolunu tutub gedənlər qəsd edilir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Məndən sonra yaşayanlarınız çoxlu ixtilaflar görəcəklər. Belə olduğu təqdirdə siz mənim sünnəmə və doğru yolda olan raşidi xəlifələrimin sünnəsinə tabe olun. Bundan arxa dişlərinizlə möhkəm tutun.** ***Sonradan dinə əlavə edilmiş*** **yeniliklərdən çəkinin, çünki hər bir yenilik zəlalətdir.”**[2]

Digər hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: **“Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, onların birindən başqa hamısı Cəhənnəmə girəcək”.** Səhabələr soruşdular: “Kimlərdir Cənnətlik olanlar, ya Rəsulullah?” Peyğəmbər ﷺ dedi: **“Onlar mənim və səhabələrimin yolunu tutub gedənlərdir.”**[3]

Bundan bizə aydın olur ki, Allahın Kitabını və Peyğəmbərinin ﷺ sünnəsini, yəni mötəbər hədisləri səhabələrin başa düşdüyü kimi qəbul edən, Quran və sünnədə buyurulanları onların yerinə yetirdiyi kimi yerinə yetirən hər kəs əməlisaleh sələflərin yolu ilə gedənlərdən sayılır.

Sual verilsə ki, səhabələrdən sonrakı alimlər “sələfi” sayılırlarmı? Cavab olaraq deyirik: “Bəli, Peyğəmbərin ﷺ və onun səhabələrinin yolunu gedən alimlər, o cümlədən də Əbu Hənifə Numan ibn Sabit, Malik ibn Ənəs, Muhəmməd ibn İdris əş-Şafii, Əhməd ibn Hənbəl və digərləri

---

[1] “ən-Nisa” surəsi, 115.

[2] Sunən Əbu Davud, 4607; Sunən ət-Tirmizi, 266.

[3] Sunən ət-Tirmizi, 2641; Səhih əl-Cami, 5343.

bu ümmətin sələfləri sayılırlar. Məzhəb təəssübkeşliyi etmədən, Quran və sünnəyə istinad edən hənəfilər, malikilər, şafiilər və hənbəlilər də, əməlisaleh sələflərin yolu ilə gedən sələfilər sayılırlar. Belə ki, bu dörd məzhəb aliminin dördünün də həm etiqadi, həm də fiqhi məsələlərdəki rəylərinin çoxu eyni olmuşdur. Sadəcə olaraq, bəzi dini məsələlərdə onların arasında fikir ayrılığı var. Bu da, heç bir vəchlə onların sələflərdən sayılmalarına xələl gətirə bilməz. Belə ki, İslam alimləri arasında baş vermiş istənilən ixtilafda hər iki tərəf – doğru rəydə olan da, yanlış rəydə olan da savab qazanır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **“Əgər hökm verən *alim* hökm verdiyi zaman ictihad etsə, sonra da verdiyi hökm düz çıxsa, iki savab qazanar. Yox, əgər hökm verdiyi zaman ictihad etsə, sonra da verdiyi hökm səhv olsa, bir savab qazanar.”**[1]

Bu hədisi bilən və özünü müsəlman sayan adam Allahın əsrlər boyu ucaltdığı, habelə, insanlar arasında elmi ilə seçilən, ömrünü İslam dininin yayılmasına sərf edən əməlisaleh sələflər barədə pis zənnə qapılmamalı, o alimlərin ictihad nəticəsində yol verdiyi xətalara görə onlara dil uzatmamalı, onlara nifrət etməməli, onları təhqir etməməli, əksinə, barələrində gözəl zənn etməli, onları sevməli, onların üstünlüklərindən və İslam dini üçün etdikləri əməllərdən danışmalı, üstəlik, Quranda xəbər verildiyi kimi, daim dua edib deməlidir:

﴿وَٱلَّذِينَ جَآءُو مِنۢ بَعۡدِهِمۡ يَقُولُونَ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ
سَبَقُونَا بِٱلۡإِيمَٰنِ وَلَا تَجۡعَلۡ فِي قُلُوبِنَا غِلّٗا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَآ إِنَّكَ رَءُوفٞ رَّحِيمٌ﴾

[1] Səhih əl-Buxari, 7352; Səhih Muslim, 4584.

**“Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki mömin qardaşlarımızı[1] bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!”[2]**

Əgər mömin adam bu dua ilə ixlasla Allaha yalvararsa, Allah onun qəlbində möminlərə, ələlxüsus da bu ümmətin alimlərinə qarşı nifrət və həsədə yer verməz.

Alimin ictihad edərək verdiyi hər hansı bir fətvanın Peyğəmbərin ﷺ mötəbər hədisinə müvafiq olmaması mümkün bir haldır. Belə ki, başda səhabələr رضي الله عنهم olmaqla, heç bir alim özünün Peyğəmbər ﷺ kimi məsum (səhvsiz) olduğunu düşünməmiş, əksinə, verdiyi fətvalarda yanlışlıq ola biləcəyini ehtimal etmişdir. Bu xüsusda dörd böyük alimin dediklərindən misallar göstərmək yerinə düşərdi:

**1. İmam Əbu Hənifə Numan ibn Sabit** رحمه الله belə demişdir: “Səhih hədis mənim məzhəbimdir.”[3]

O, həmçinin demişdir: “Allahın Kitabına və Peyğəmbərin ﷺ hədislərinə zidd fətva versəm, o fətvanı götürməyin.”[4]

**2. İmam Malik ibn Ənəs** رحمه الله belə demişdir: “Mən bir insanam. Verdiyim fətvalardan doğru olanı da var, yanlış olanı da. Elə isə, mənim fətvalarıma diqqət edin! Onlardan Allahın Kitabına və Peyğəmbərinin ﷺ hədislərinə müvafiq olanları götürün, müvafiq olmayanları isə tərk edin.”[5]

---

[1] Bu ayadə “qardaşlarımız” deyildikdə, təkcə kişilər deyil, qadınlar da nəzərdə tutlur. Yəni, belə dua etməklə Allahdan mömin kişilərin və mömin qadınların bağışlanmasını diləyirik.

[2] “əl-Həşr” surəsi, 10.

[3] İbn Abidin, əl-Haşiyə, 1/63; Fullani, İqaz əl-Himəm, səh: 62.

[4] Fullani, İqaz əl-Himəm, səh: 50.

[5] İbn Abdul-Bərr, əl-Cami, 2/32; İbn Həzm, Usul əl-Əhkam, 6/149.

O, həmçinin demişdir: “Peyğəmbərdən ﷺ başqa hər kəsin sözü bu gün əsas kimi götürülüb, sabah tərk edilə bilər.”[1]

**3. Muhəmməd ibn İdris əş-Şafii** رحمه الله belə demişdir: “Müsəlmanlar yekdil rəydədirlər ki, heç kimə Peyğəmbərin ﷺ səhih hədisi özünə bəlli olduqdan sonra, kiminsə fətvasına görə o hədisi tərk etməsi halal deyildir.”[2]

O, həmçinin demişdir: “Mənim kitabımda Peyğəmbərin ﷺ hədisinə zidd olan fətva görsəniz, Peyğəmbərin ﷺ sünnəsinə əməl edin, mənim fətvamı isə tərk edin.”[3]

O, həmçinin demişdir: “Səhih hədis mənim məzhəbimdir.”[4]

**4. Əhməd ibn Hənbəl** رحمه الله belə demişdir: “Mənə təqlid[5] etməyin! Malikə, Şafiiyə, Əvzaiyə və Sovriyə təqlid etməyin! Onların istinad etdikləri mənbəyə istinad edin!”[6]

“Sələfilik” termini imanın əsasları (xüsusilə də Allahın adları və sifətləri) ilə bağlı məsələlərdə ilk dövrdəki alimlərinin (səhabələrin) yolu ilə gedərək ayə və hədislərdəki ifadələrin zahiri ilə kifayətlənib onları olduğu kimi qəbul edənləri, Allahı məxluqata bənzətməyən və Onu cisim hesab etməyən (təşbih və təcsim etməyən), habelə, Allahın ad və sifətlərini başqa mənaya yozmayan Əhli-sünnə vəl-cəmaəni müəyyən etmək üçün istifadə olunur... “Əhli-sünnə xassa” adı ilə də vəsf olunan sələfi camaatı, Peyğəmbər ﷺ və səhabələrinin رضي الله عنهم iman məsələlərində getdiyi yolla gedənlərdir.

---

[1] İbn Abdulhadi, İrşadus-Salik, 1/227; İbn Abdul-Bərr, əl-Cami, 2/91.

[2] Fullani, İqaz əl-Himəm, səh: 68.

[3] Hərəvi, Zəmmul-Kəlam, 3/47/1; Nəvəvi, əl-Məcmu, 1/63.

[4] Nəvəvi, əl-Məcmu, 1/57; Fullani, İqaz əl-Himəm, səh: 107.

[5] Təqlid: başqasının hərəkətini, danışıq tərzini və sair xüsusiyyətlərini təkrar etmək, özünü ona oxşatmağa çalışmaq, yamsılamaq.

[6] Fullani, İqaz əl-Himəm, səh.113; İbn əl-Qeyyim, İlam əl-Muvəqqiin, 2/302.

Tabiin, məzhəb imamları, böyük müctəhidlər və hədis alimləri sələfidirlər... İmam Şafii, Malik, Əhməd ibn Hənbəl, bəzi görüşlərinə görə Əbu Hənifə, həmçinin Əvzai, Sövri kimi ictihad imamları, Buxari, Muslim, Əbu Davud, Darimi, İbn Məndə, İbn Quteybə və Beyhəqi kimi mühəddislər, Təbəri, Xətib əl-Bağdadi, Təhavi, İbn əl-Cövzi, və İbn Qudamə kimi böyük alimlər sələf etiqadının aparıcı simalarından sayılırlar.

İlk dönəmdə olan sələfi anlayışının ən fərqli xüsusiyyəti, etiqad məsələsində insan ağlına istinad etməmək, ayə və hədislərlə kifayətlənmək, həmçinin necəliyi aydın olmadığı üçün başqa mənalara yozma ehtimalı olan ayə və hədisləri yozmayıb, bunların necəliyini Allaha həvalə etmək olmuşdur.[1]

Xülasə olaraq deyək ki, hər bir mömin istinad edə bilməsi üçün İslamın iki əsas mənbəyi olan Quran və sünnəni öyrənməsi vacibdir. Bu xüsusda Quranda belə buyurulur:

﴿مَّن يُطِعِ ٱلرَّسُولَ فَقَدۡ أَطَاعَ ٱللَّهَ﴾

**“Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar.”[2]**

﴿فَلَا وَرَبِّكَ لَا يُؤۡمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيۡنَهُمۡ ثُمَّ لَا يَجِدُواْ فِيٓ
أَنفُسِهِمۡ حَرَجٗا مِّمَّا قَضَيۡتَ وَيُسَلِّمُواْ تَسۡلِيمٗا﴾

**“Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca, iman gətirmiş olmazlar.”[3]**

---

[1] İlmihal İman və İbadetler, 1-ci cild, 24-cü səhifə, Türkiyə Diyanət Vakfı Yayınları/323, Ankara 2006.

[2] “ən-Nisa” surəsi, 80.

[3] “ən-Nisa” surəsi, 65.

﴿وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى ٱللَّهُ وَرَسُولُهُۥٓ أَمْرًا أَن يَكُونَ لَهُمُ ٱلْخِيَرَةُ مِنْ
أَمْرِهِمْ ۗ وَمَن يَعْصِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدْ ضَلَّ ضَلَٰلًا مُّبِينًا﴾

**“Allah və Onun rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.”**[1]

﴿وَمَآ ءَاتَىٰكُمُ ٱلرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَىٰكُمْ عَنْهُ فَٱنتَهُوا۟﴾

**“Peyğəmbər sizə nə buyurursa, ona əməl edin, nəyi də qadağan edirsə, ondan çəkinin!”**[2]

﴿فَإِن تَنَٰزَعْتُمْ فِى شَىْءٍ فَرُدُّوهُ إِلَى ٱللَّهِ وَٱلرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِٱللَّهِ وَٱلْيَوْمِ ٱلْءَاخِرِ ۚ
ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا﴾

**“Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.”**[3]

---

1 “əl-Əhzab” surəsi, 36.
2 “əl-Həşr” surəsi, 7.
3 “ən-Nisa” surəsi, 59.

## "Sələf" sözünün qədimdən bəri istifadə edilməsi

Möhtərəm oxucular! Məlumunuz olsun ki, Allahın göndərdiyi peyğəmbərlərin ﷺ və onların ardıcıllarının hamısı müsəlman olmuşlar. Bu xüsusda Quranda belə buyurulur:

﴿ هُوَ سَمَّىٰكُمُ ٱلْمُسْلِمِينَ مِن قَبْلُ وَفِى هَٰذَا ﴾

**"Allah həm əvvəl *nazil etdiyi kitablarda*, həm də bu *Kitabda* sizi müsəlman adlandırdı."**[1]

Nuh peyğəmbər عليه السلام öz qövmünə:

﴿ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ ٱلْمُسْلِمِينَ ﴾

**"Mənə müsəlmanlardan olmaq əmr edilmişdir"**[2]– demişdir;

Allah İbrahim peyğəmbərə عليه السلام:

﴿ إِذْ قَالَ لَهُۥ رَبُّهُۥٓ أَسْلِمْ ۖ قَالَ أَسْلَمْتُ لِرَبِّ ٱلْعَٰلَمِينَ ﴾

**"Müsəlman ol!"– deyə əmr etdikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!"– demişdir."**[3]

﴿ وَوَصَّىٰ بِهَآ إِبْرَٰهِۦمُ بَنِيهِ وَيَعْقُوبُ يَٰبَنِىَّ إِنَّ ٱللَّهَ ٱصْطَفَىٰ لَكُمُ ٱلدِّينَ فَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسْلِمُونَ ﴾

---

[1] "əl-Həcc" surəsi, 78.
[2] "Yunus" surəsi, 72.
[3] "əl-Bəqərə" surəsi, 131.

**«İbrahim də, Yaqub da, *müsəlman olmağı* öz oğullarına belə vəsiyyət etmişlər: "Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olduğunuz halda dünyadan köçün!"»**[1]

Yusuf peyğəmbər عليه السلام belə dua etmişdir:

﴿ رَبِّ قَدْ ءَاتَيْتَنِي مِنَ ٱلْمُلْكِ وَعَلَّمْتَنِي مِن تَأْوِيلِ ٱلْأَحَادِيثِ فَاطِرَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ أَنتَ وَلِيِّۦ فِي ٱلدُّنْيَا وَٱلْآخِرَةِ تَوَفَّنِي مُسْلِمًا وَأَلْحِقْنِي بِٱلصَّٰلِحِينَ ﴾

**"Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri Yaradan! Sən Dünyada da, Axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman olduğum halda al və məni əməlisalehlərə qovuşdur."**[2]

Musa peyğəmbər عليه السلام də öz qövmünə:

﴿ وَقَالَ مُوسَىٰ يَٰقَوْمِ إِن كُنتُمْ ءَامَنتُم بِٱللَّهِ فَعَلَيْهِ تَوَكَّلُوٓا۟ إِن كُنتُم مُّسْلِمِينَ ﴾

**"Əgər Allaha iman gətirmisinizsə və müsəlman olmusunuzsa, Ona təvəkkül edin!"– demişdir."**[3]

Süleyman peyğəmbər عليه السلام:

﴿ وَأُوتِينَا ٱلْعِلْمَ مِن قَبْلِهَا وَكُنَّا مُسْلِمِينَ ﴾

**"Bizə bundan əvvəl elm verilmiş və biz müsəlmanıq!"– demişdir.**[1]

---

[1] "əl-Bəqərə" surəsi, 132.
[2] "Yusuf" surəsi, 101.
[3] "Yunus" surəsi, 84.

İsa peyğəmbərin عليه السلام həvariləri ona:

﴿ ءَامَنَّا بِٱللَّهِ وَٱشْهَدْ بِأَنَّا مُسْلِمُونَ ﴾

**“Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanıq!”** demişlər.[2]

Muhəmməd Peyğəmbər ﷺ də:

﴿ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ ٱلْمُسْلِمِينَ ۝ وَأَنْ أَتْلُوَا۟ ٱلْقُرْءَانَ ﴾

**“Mənə müsəlman olmaq və Quran oxumaq əmr edilib”**[3]– demişdir.

Qiyamət günü uca Allah qullarından bir qisminə müsəlman olduqlarını xatırladacaq və onları Cənnətə daxil edəcək. O gün onlara belə buyurulacaq:

﴿ يَٰعِبَادِ لَا خَوْفٌ عَلَيْكُمُ ٱلْيَوْمَ وَلَآ أَنتُمْ تَحْزَنُونَ ۝ ٱلَّذِينَ ءَامَنُوا۟ بِـَٔايَٰتِنَا وَكَانُوا۟ مُسْلِمِينَ ۝ ٱدْخُلُوا۟ ٱلْجَنَّةَ أَنتُمْ وَأَزْوَٰجُكُمْ تُحْبَرُونَ ﴾

**“Ey qullarım! Bu gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz. Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!”**[4]

Muhəmməd peyğəmbərin ﷺ dövründə, sonra da Əbu Bəkr və Ömərin رضي الله عنهما xilafətləri dönəmində müsəlmanlar bir camaat olmuş və həmin dövrlərdə hər kəs özünə sadəcə: “Müsəlmanam”

---

[1] “ən-Nəml” surəsi, 42.
[2] “Ali-İmran” surəsi, 52.
[3] “ən-Nəml” surəsi, 91-92.
[4] “əz-Zuxruf” surəsi, 68-70.

deməklə kifayətlənmişdir. Nəhayət, Osman ibn Əffanın رضي الله عنه xilafətinin son dövrlərindən başlayaraq – ilk əvvəl xəvariclər, sonra qədərilər, motəzililər, rafizilər, cəhmilər və s. firqələr meydana gəlməyə başlamış, haqq yolda olan alimlər bu firqələrin batil yolda olduğunu və doğru yolun məhz səhabələrin رضي الله عنهم yolu olduğunu bildirmiş, üstəlik, onlardan seçilmək üçün: "Haqq yol, əməlisaleh sələflərin yoludur"– demişlər. Beləcə, alimlər səhabələri رضي الله عنهم və onların ardıcıllarını "əməlisaleh sələflər" adlandırmışlar. Bu minvalla əsrlər boyu "sələf" sözü dildən-dilə keçərək müasir dövrümüzə gəlib çatmışdır.

Təəssüflər olsun ki, indiki dövrdə bir çox ölkələrdə özlərini sələfi adlandıranların bir qismi İslam alimlərinin qəsd etdiyi sələflərin yolunu tutub getmirlər. Onlar ətraflarına yalnız özlərinin fikrini dəstəkləyən müsəlmanları toplayır, digər müsəlmanlara, xüsusilə də digər məzhəblə gedənlərə xor baxırlar. Hətta aralarından ifrata varmış olanlar o müsəlmanlarla ədavət aparır, müsəlmanın qardaşı üzərində olan haqlarını – salam vermək, xəstələndikdə ziyarət etmək, cənazəsində iştirak etmək, dəvətini qəbul etmək və s. bu kimi haqları ödəməkdən boyun qaçırır və ən qəribəsi də bunu "sələfilik" adlandırırlar. Belələri, öz aralarından birini özlərinə "lider" seçərək kortəbii şəkildə ona təqlid edir, onun fikrinə müxalif olan bütün rəyləri inkar edir, hətta həmin liderin bəyənmədiyi kimsələri bidət əhlindən hesab edir, beləliklə də, özləri hiss etmədən bir firqəyə çevrilmiş olurlar. Diqqət edin, birisi: "Mən heç bir məzhəbə təqlid etmirəm, sələfiyəm"– deyir, lakin özü tutduğu mövqeyi ilə təqlidçiyə çevrilmiş olur. Halbuki əməlisaleh sələflər hər zaman təvazökar olmuş və sələflərin yolunda olan alimlərin – Əbu Hənifə Numan ibn Sabitin رحمه الله, Malik ibn Ənəsin رحمه الله, Muhəmməd ibn İdris əş-Şafiinin رحمه الله, Əhməd ibn Hənbəlin رحمه الله və digərlərinin

ictihadi rəylərinə ehtiramla yanaşmışlar. Bu xüsusda bizə örnək olan sələflərdən bəzi misallar çəkək:

– İbn Əbud-Dünya rəvayət edir ki, bir dəfə Səd ﷺ və Xalidin ﷺ arasına ixtilaf düşdü. Bir nəfər Sədin yanında Xalidi məzəmmət etdi. Onda Səd ona susmağı əmr etdi və dedi: “Aramızdakı ixtilafın din qardaşlığımıza heç bir dəxli yoxdur.”[1]

– Rəvayət edilir ki, Yunus əs-Səqəfi demişdir: “Bir məsələdə mənimlə Şafii arasında fikir ayrılığı var idi. Bir gün biz yolda rastlaşdıq və o, mənim əlimdən tutub dedi: “Ey Yunus, aramızdakı fikir ayrılığı qardaş olmağımıza mane ola bilməz!” Həqiqətən də, o, gördüyüm ən ağıllı adamlardan idi.”[2]

– Rəvayət edilir ki, məclislərin birində Əhməd ibn Hənbəl ﷺ Şafiinin ﷺ fəzilətini və əxlaqını xüsusuilə vurğuladı, onu təriflədi və onun üçün dua etdi. Məclisdəkilərdən bəzisi ona, həmin məclisdə Şafiini sevməyən kimsələrin olduğunu bildirdi. Onda, Əhməd ibn Hənbəl ﷺ dedi: “Bilin ki, uca Allah birisinə elm bəxş edib, digərlərini bundan məhrum etdikdə, onlar ona həsəd aparar və onun haqqında böhtanlar danışarlar. Elm əhlində olan bu xislət, necə də pisdir!”[3]

– Başqa bir rəvayətdə xəbər verilir ki, Əhməd ibn Hənbəl ﷺ İshaq ibn Rahuyəni ﷺ tərifləyib demişdir: “Xorasana İshaq kimi elmlisi gəlməmişdir. Onunla bizim aramızda olan fikir ayrılığı, alimlər arasında hər zaman mövcud olan fikir ayrılığı kimidir.”[4]

---

[1] əs-Samt və Hifz əl-Lisan, səh. 137.
[2] Siyər əl-Əlam ən-Nubələ, 10/16.
[3] Siyər əl-Əlam ən-Nubələ, 10/45-58.
[4] Siyər əl-Əlam ən-Nubələ, 11/371.

– Zəhəbi رحمه الله rəvayət edir ki, Muhəmməd ibn Səlləm رحمه الله və Əbu Həfsin رحمه الله arasındakı fikir ayrılığına baxmayaraq, onlar bir-birini çox sevirdilər, aralarında da çox isti münasibət var idi."[1]

– Rəvayət edilir ki, Məkkə alimlərindən olmuş Vəkiy ibn əl-Cərrah رحمه الله Peyğəmbərin ﷺ vəfatı ilə bağlı hədis rəvayət edir. Bu hədis haşimilərdən bəzilərinin xoşuna gəlmədiyindən gedib Məkkə valisinə şikayət edirlər və o da, Vəkiy ibn əl-Cərrahı رحمه الله zindana salır. Vəkiy ibn əl-Cərrah رحمه الله ilə arasında fikir ayrılığı olan Süfyan əs-Sövri رحمه الله bundan xəbər tutan kimi, Məkkə valisinin yanına gəlib, Vəkiy ibn əl-Cərrahın رحمه الله insanlar arasında hörmət sahibi olduğunu ona xatırladır və onu azad etməyi xahiş edir. Vali də Süfyan əs-Sövrinin رحمه الله xahişini yerinə yetirib, onu azad edir."[2]

Bütün bunlar, sələflər arasında olan isti münasibətləri əks etdirən yüzlərlə rəvayətlərdən bəziləridir. Onlar kimi əxlaqlı olmaq üçün onların həyat-yolunu oxuyub öyrənməli və onlar kimi yalnız Quran və sünnəyə sarılmalıyıq. Bu xüsusda Malik ibn Ənəsin رحمه الله möhtəşəm bir nəsihəti var. O, demişdir: "Bu ümmətin əvvəlinciləri nəyin sayəsində islah olmuşlarsa, axırıncıları da yalnız onun sayəsində[3] islah ola bilərlər."[4]

Yeri gəlmişkən, xüsusilə vurğulamaq istəyirik ki, biz əməlisaleh sələflərin yolundayıq və sələfi olmağımızla fəxr edirik. Rəbbimə çoxlu həmd-sənalar edirəm ki, milyonlarla insan arasından bizi seçib, bu yola yönəldib, habelə, İslam dinini öyrənməyi və başqalarına öyrətməyi bizə nəsib edib. Bu, böyük nemətdir. Peyğəmbər ﷺ bu nemətə nail olanları müjdələyib

---

[1] Siyər əl-Əlam ən-Nubələ, 10/630.

[2] Siyər əl-Əlam ən-Nubələ, 9/159.

[3] Yəni Quran və sünnəyə əməl etməklə.

[4] Qaidətul-Cəliyyə, səh: 53-62.

demişdir: **"Allah kimə xeyir nəsib etmək istəyərsə, *İslam* dinini *doğru-düzgün* başa düşməyi ona nəsib edər."**[1] Digər hədisdə o demişdir: **"Sizin ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir."**[2]

Əgər bizim təbliğ etdiyimiz sələfi dəvətindən kimsəyə azacıq da olsa xeyrimiz dəymişsə, habelə, gələcək nəsillərə xeyrimiz dəyəcəksə, xoş bizim halımıza! Buna görə biz Allaha həmd edir və Allahdan əməllərimizin yalnız Onun rizasını qazanmaq üçün yerinə yetirilənlərdən olmasını diləyirik!

Əgər hər hansı bir müsəlman: "Mən yalnız filan elm əhlinə qulaq asıram", yaxud "filan elm tələbəsindən başqasını qəbul etmirəm" və s. buna bənzər sözlər deyərək şəxsiyyətə pərəstiş edirsə, onunla hər hansı bir alimə kortəbii şəkildə təqlid edən arasında nə fərq olur?! Əksinə, məzhəb aliminə təqlid edən şəxs daha etibarlı və daha elmli birinin yoluna tabe olmuş sayıla bilər. Təbii ki, heç bir elm tələbəsi Əbu Hənifə, Malik, Şafii, Əhməd ibn Hənbəl və başqa bu kimi alimlərlə müqayisə edilə bilməz. Odur ki, biz öz dəvətimizdə insanlara, bir alimə təqlid edib, digərlərinə xor baxmağın yanlış olduğunu bildiririk. Allahdan qorxan hər bir alim, icmanın (alimlərin hamısının) və ya cumhurun (alimlərin çoxunun) yekdil rəyinin fərdi rəylərdən üstün sayıldığını etiraf edir. Elə bu səbəbdən də sələfilər alimlərin hamısının rəylərinə baxıb, icmanın və ya cumhurun rəyinə istinad edirlər. Əməlisaleh sələflərin yolunu tutub gedən alim hər hansı bir məzhəbin fiqhini insanlara öyrədəndə o məzhəbdəki, icma və ya cumhurun rəyinə müxalif olan rəyləri götürmür, əksinə, insanlara icmanın və ya cumhurun rəylərinə əsaslanmağı tövsiyə edir.

---

[1] Səhih əl-Buxari, 71.

[2] Səhih əl-Buxari, 5027.

# Sələfləri misal çəkən bəzi alimlər

Qədim alimlərin öz kitablarında sələflər barədə söz açması, bəzilərinin bu kəlmənin müasir dövrdə meydana gəlməsi və sələflərin firqə olması fikrini inkar edir. Qeyd edək ki, bəzi savadsızlar elmsizliklərindən dolayı sələfləri xəvariclərə tay tutur, onların xəvariclər kimi azğın firqə olduğunu irəli sürür və bu iddialarında əsassız olaraq, sadəcə dedi-qodulara istinadən edirlər. Beləliklə də, fərqinə varmadan Peyğəmbəri ﷺ, onun səhabələrini رضي الله عنهم və onların yolunu tutub gedən alimləri tənqid və təhqir etmiş olurlar.

İslam alimlərindən bəzisinin nümunə olaraq sələfləri misal çəkmələrinə nəzər salaq:

– Həsən əl-Bəsri (vəfatı h. 110) رحمه الله qədər xüsusunda Abdulmalik ibn Mərvana (vəfatı h. 86) yazdığı məktubda demişdir: "Sələflərdən[1] heç kəs qədəri inkar edənlərin batil fikrini söyləməmiş və bu mövzuda mübahisə etməmişdir. Çünki onların hamısı bununla bağlı eyni etiqadda olmuşlar."[2]

– Əbu Hənifə Numən ibn Sabit (vəfatı h. 150) رحمه الله demişdir: "Mən Məkkədə Əta ibn Əbu Rəbaha رحمه الله rast gəldim və ondan bir məsələ haqqında soruşdum. O soruşdu: "Sən kimlərdənsən?" Mən: "Kufə əhlindənəm"– deyə cavab verdim. O dedi: "Sən, özlərinin dinini firqələrə bölmüş kimsələrin diyarındansan?" Mən: "Bəli!"– deyə cavab verdim. O soruşdu: "Sən hansı camaatdansan?" Mən dedim: "Mən, sələfləri söyməyən, qədərə iman gətirən və böyük günah sahibini kafir saymayan camaatdanam." Əta dedi: "Aydın oldu, bu etiqada möhkəm sarıl!"[3]

---

[1] Həsən əl-Bəsri رحمه الله "sələflər" deyəndə səhabələri رضي الله عنهم qəsd edir.
[2] Murtəda, əl-Məniyyə vəl-Əməl fi şərh əl-Miləl vən-Nihəl, səh: 134.
[3] Əbu Nueym əl-Əsbəhani, Musnəd Əbu Hənifə, 1/23; Tarix Bağdad, 13/334.

Həmçinin, rəvayət edilir ki, Əbu Hənifədən ﷺ: "Bəzi insanların danışdığı təsadüfi yaradılış və materiyalar barədə nə deyə bilərsən?"– deyə soruşulduqda, o belə cavab vermişdir: "Bu, filosofların uydurmalarıdır. Sən Quran və sünnəyə sarıl, sələflərin yolu ilə get. Dinə əlavə edilmiş yeniliklərdən uzaq ol, çünki hər bir yenilik bidətdir."[1]

– Əvzai (vəfatı h. 157) ﷺ demişdir: "İnsanlar səndən üz çevirsələr belə, sən sələflərdən rəvayət edilmiş əsərlərdən möhkəm tut! İnsanlar sənə bəzi adamların rəylərini gözəl göstərsələr belə, nəbadə onlara uyasan!"[2]

– Malik ibn Ənəs (vəfatı h. 179) ﷺ demişdir: "Sələflər öz övladlarına Qurandan surə öyrətdikləri kimi, Əbu Bəkr və Öməri ﷺ sevməyi də öyrədərdilər."[3]

– Abdullah ibn əl-Mubarək (vəfatı h. 181) ﷺ camaata nəsihət edərkən demişdir: "Amr ibn Sabitin dediklərini rədd edin. Çünki o, sələfləri söyərdi."[4]

– Əbu Abdullah Muhəmməd ibn Həsən əş-Şeybani (vəfatı h. 189) ﷺ "əz-Zariyat" surəsinin: **"Sizin ruziniz və sizə vəd olunan şeylər göydədir"**[5] ayəsini izah edərkən demişdir: "Ayədə "ruzi" deyildikdə göydən yağan yağmur qəsd edilir. Onun sayəsində bitkilər yetişir. Bir çox sələflər bunun "ruzi" adlandığını demişlər."[6]

---

[1] Əbu Nueym əl-Əsbəhani, əl-Huccə fi bəyan əl-Məhəccə, 1/104; Hərəvi, Zəmmul-Kəlam, səh: 255.

[2] Acurri, əş-Şəriə, səh: 102; Müxtəsər əl-Uluv, səh: 138.

[3] əl-Lalakai, Şərh Usul İtiqad Əhlis-Sünnə, 7/1313.

[4] Əhməd ibn Hənbəl, İləl və Mərifətur-Rical, 3/486; Muqəddimətu Muslim, 16.

[5] "əz-Zariyat" surəsi, 22.

[6] Muhəmməd ibn Həsən əş-Şeybani, əl-Kəsb, 1/42.

– Muhəmməd ibn İdris əş-Şafii (vəfatı h. 204) رحمه الله demişdir: "Bizə rəvayət edilmişdir ki, Rəsulullah ﷺ bayram[1] namazlarını Mədinədə *məsciddən kənarda olan* namazgahda qılardı. Ondan sonra gələnlər də, Mədinədə və digər diyarlarda bayram namazlarını namazgahda qılardılar. Yalnız məkkəlilərdən başqa. Bizə nəql edilmiş rəvayətlərdə xəbər verilir ki, sələflərin hər biri Məkkədə bayram namazını camaata yalnız məsciddə qıldırmışdır."[2]

O, həmçinin demişdir: "İbn Sabitin sələflərdən rəvayət etdiyi hədis, Rəsulullahdan ﷺ rəvayət olunan hədisə müvafiqdir. Həmin hədisdə xəbər verilir ki, Cəbrail عليه السلام Rəsulullaha ﷺ buyurmuşdur ki, səhabələrinə رضي الله عنهم, onlar təlbiyə edərkən səslərini yüksəltməyi əmr etsin."[3]

– Əhməd ibn Hənbəl (h. 241) رحمه الله demişdir: "Bizə Abdullah, Vəlid ibn Şüca əs-Səkkunidən, o da, Kəb Əbu İshaq əl-Hələbidən, o da, Furatdan, o da, Abdulkərimdən, o da, İkrimədən rəvayət etmişdir ki, İkrimə demişdir: "Mən Əbu Bəkrin qızı Əsmadan رضي الله عنها soruşdum: "Sələflər *Allah* qorxusundan bayılardımı?" Əsma رضي الله عنها dedi: "Xeyr, lakin hönkür-hönkür ağlayardılar."[4]

– Muhəmməd ibn İsmail əl-Buxari (vəfatı h. 256) رحمه الله rəvayət edir ki, Raşid ibn Səd رحمه الله demişdir: "Sələflər güclü olmağa çalışırdılar. Çünki belə olduqda daha fəal və cəsarətli olurdular."[5]

---

[1] Yəni Ramazan və Qurban bayramları.

[2] Muhəmməd ibn İdris əş-Şafii, əl-Um, 1/267.

[3] Əvvəlki mənbə, 2/170.

[4] Əhməd ibn Hənbəl, əz-Zuhd, 1/176.

[5] İbn Həcər, Fəth əl-Bari, 6/66. İbn Həcər رحمه الله bu rəvayətdə "sələflər" deyildikdə, səhabələr رضي الله عنهم qəsd edildiyini söyləmişdir. Belə ki, Raşid ibn Səd رحمه الله tabiindir və təbii ki, burada "sələflər" deyəndə özündən əvvəlki nəsli, yəni səhabələri رضي الله عنهم qəsd edir.

İmam Buxari ﷺ həmçinin demişdir: “Fəsil: “Sələflər evlərində yemək, ət və s. ərzaq ehtiyatı saxlayar, habelə, səfərə çıxdıqda da özləri ilə bu ərzaqlardan götürərdilər.”[1]

**–** İbn Cərir ət-Təbəri (vəfatı h. 310) “əl-Bəqərə” surəsinin: **“Kim *müqəddəs* Evi həcc və ya ümrə *niyyəti ilə* ziyarət edərsə, bu iki *dağ – Səfa və Mərvə dağları arasında* səy etməsində ona heç bir günah yoxdur”**[2] ayəsini izah edərkən demişdir: “Günah yox, əksinə, bu əməlinə görə savab qazanar. Bizim bu ayə barədə söylədiyimiz təfsir, sələflərdən – səhabələrdən və tabiinlərdən rəvayət edilmişdir.”[3]

O, həmçinin “Tarix” kitabında belə demişdir: “Sələflərin bir çoxundan rəvayət edilmişdir ki, Adəm peyğəmbərlə Nuh peyğəmbər arasında on əsrlik zaman olmuşdur. Bu əsrlər boyu insanlar tövhid üzərində sabit qalmışlar.[4]”[5]

---

[1] Fəth əl-Bari, 9/552.

[2] “əl-Bəqərə” surəsi, 158.

[3] Cami əl-Bəyan fi Təfsir əl-Quran, Təfsir ət-Təbəri, 2/713. İbn Cərir ət-Təbəri öz “Təfsir”ində yüzə yaxın yerdə “sələf” sözünü zikr etmişdir.

[4] Əbu Umamənin rəvayət etdiyi hədisdə xəbər verilir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib soruşdu: “Ya Rəsulullah, Adəm peyğəmbərmi olub?” Peyğəmbər ﷺ dedi: “Bəli, peyğəmbər olub və Allah onunla danışıb.” Adam soruşdu: “Onunla Nuh peyğəmbər arasında nə qədər zaman keçib?” Peyğəmbər ﷺ dedi: “On əsr.” (Səhih İbn Hibban, 6190; Silsilə əl-Əhadis əs-Səhihə, 2668).

Digər bir hədisdə Abdullah ibn Abbas demişdir: “Adəm peyğəmbərlə Nuh peyğəmbər arasında on əsrlik zaman olmuşdur. Bu əsrlər boyu insanlar haqq din (tövhid) üzərində sabit qalmış, sonra isə ixtilafa düşmüşlər. Nəhayət, Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərmişdir” (Təfsir ət-Təbəri, 2/194; Təfsir İbn Kəsir, 1/250; Mustədrək əl-Hakim, 2/546-547; Silsilə əl-Əhadis əs-Səhihə, 7/854).

[5] Tarix ər-Rusul vəl-Muluk, Tarix ət-Təbəri, 1/178. İbn Cərir ət-Təbəri bu kitabda əlliyə yaxın yerdə “sələf” sözünü zikr etmişdir.

– İbn Abdul-Bərr kimi tanınan Əbu Amr Yusuf ibn Abdullah (vəfatı h. 463) ﷺ öz kitabında yetimin malından zəkat çıxartmaq məsələsindən danışarkən belə demişdir: "Sələflərin çoxu, yetimin malından zəkat çıxartmağın vacib olduğuna dair fətva vermişdir."[1]

– Muhəmməd ibn Əhməd əs-Sərxəsi (vəfatı h. 483) ﷺ demişdir: "Qadının azan verməsi dinə əlavə edilmiş yeniliklərdəndir. Sələflər belə etməzdilər. Hər bir yenilik bidətdir."[2]

– Səmani (vəfatı h. 562) ﷺ demişdir: "Sələfi deyildikdə, əməlisaleh sələfilərə nisbət olunan və onların yolunu tutub gedən möminlər qəsd edilir."[3]

– Muhəmməd ibn Əhməd əl-Qurtubi (vəfatı h. 671) ﷺ **"*Allah* Ərşin üzərində istiva etdi** (ucaldı)**"**[4] ayəsini izah edərkən demişdir: "Sələflərdən heç kəs Allahın həqiqi mənada Ərşin üzərində ucaldığını inkar etməmişdir."[5]

– İbn Kəsir (vəfatı h. 774) ﷺ "əl-Əraf" surəsinin: **"Biz Musaya otuz gecəlik vədə verdik və buna on *gecə də* əlavə etdik"**[6] ayəsini izah edərkən demişdir: "Sələflərdən İbn Abbas ﷺ, Məsruq ﷺ, Mücahid ﷺ və başqaları bu otuz günün zülqədə ayı, on günün də zülhiccənin on günü olduğunu demişlər."[7]

---

[1] İbn Abdul-Bərr, ət-Təmhid limə fil-Muvatta minəl-Məani vəl-Əsanid 1/105. Qeyd edək ki, maliki məzhəbindən olmuş İbn Abdul-Bərr ﷺ bu kitabda yüz əlliyə yaxın yerdə "sələf" sözünü zikr etmişdir.

[2] əs-Sərxəsi, əl-Məbsut, 1/138.

[3] əl-Ənsab, 3/273.

[4] "əl-Əraf" surəsi, 54.

[5] Təfsir əl-Qurtubi, 7/219.

[6] "əl-Əraf" surəsi, 142.

[7] əl-Bidayə vən-Nihayə, 1/283. İbn Kəsir ﷺ bu kitabda iyirmiyə yaxın yerdə "sələf" sözünü zikr etmişdir.

– Bədruddin əl-Ayni (vəfatı h. 855) رحمه الله demişdir: "Əmmaməyə məsh etmək məsələsinə gəlincə, sələflərdən bir çoxları – Əvzai, Əhməd ibn Hənbəl, İshaq ibn Rahuyə, Əbu Sövr, Davud və başqaları bunun icazəli olduğunu demişlər."[1]

– İbn Teymiyyə (vəfatı h. 728) رحمه الله demişdir: "Bir adamın sələflərin yolu ilə getdiyini və onların sıralarında olduğunu bəyan etməsi onun üçün eyib sayılmır. Əksinə, bunu ondan qəbul etmək vacibdir. Çünki sələflərin yolu haqq yoldur."[2]

– Şəmsuddin əz-Zəhəbi (vəfatı h. 748) رحمه الله demişdir: "Ey Allahın qulu! Əgər ədalətli mövqedə olmaq istəyirsənsə, ayələri və hədisləri başa düşmək üçün bunları izah edən səhabələrin رضي الله عنهم, tabiinlərin və təfsir alimlərinin dediklərinə, sələflərdən nəql etdikləri rəvayətlərə bax. Ya elmə əsaslanaraq danış, ya da alicənablıq göstərərək sus!"[3]

O həmçinin, böyük mühəddislərdən olmuş Daraqutninin رحمه الله tərcümeyi-halında onu tərifləyib demişdir: "Daraqutni nə kəlam əhlindən, nə din xüsusunda mübahisə edənlərdən, nə də dinə istehza edənlərdən olmuşdur, əksinə, o, sələfi idi."[4]

– Burhanəddin İbrahim ibn İbrahim əl-Ləqqani (vəfatı h. 1041) رحمه الله demişdir:

*Hər bir xeyir, sələflərə tabe olmaqdadır,*
*Hər bir şər isə, xələflərə[5] uymaqdadır.*

---

[1] əl-Binayə şərh əl-Hidayə, 1/172.
[2] İbn Teymiyyə, Məcmu əl-Fətavə, 4/149.
[3] Zəhəbi, əl-Uluv lil-Aliyyil-Ğaffar, səh: 16.
[4] Siyər Əlam ən-Nubələ, 16/457.
[5] Xələf: sələflərin yoluna müxalif olan kimsə.

*Sələflərdən əməlisaleh olanlara tabe ol,*
*Xələflərdən bidət edənlərdən uzaq ol!* [1]

---

[1] Burhanəddin əl-Ləqqani, Covhərətut-Tovhid, səh.28, 137 və 139-cu beytlər. Tərcümə etdiyimiz beytlərin ərəbcə orijinal variantı belədir:

فَكُلُّ خَيْرٍ فِي اتِّبَاعِ مَنْ سَلَفْ    وَكُلُّ شَرٍّ فِي ابْتِدَاعِ مَنْ خَلَفْ

فَتَابِعِ الصَّالِحَ مِمَّنْ سَلَفَا    وَجَانِبِ البِدْعَةَ مِمَّنْ خَلَفَا

Qeyd edək ki, Burhanəddin əl-Ləqqani əşari əqidəsində olmuşdur. Bizim onun beytlərindən lazım olan yerini sitat gətirməyimiz heç də onun əqidəsi ilə razılaşmağımıza dəlalət etmir. Belə ki, tanınmış hər hansı bir şəxsiyyətin ibrətamiz sözündən sitat gətirmək, heç də ona istinad etmək demək deyil. Peyğəmbərimiz ﷺ bəzən müşriklərdən sitat gətirərdi.

Diqqət edin, Buxarinin rəvayət etdiyi hədisdə İkrimə رحمه الله demişdir: "Mən Aişədən رضي الله عنها soruşdum: "Peyğəmbərin ﷺ şeir dediyini eşitmisənmi?" O, dedi: "Peyğəmbər ﷺ evə daxil olduqda hərdən deyərdi: **"Sənə xəbər gətirər, təmin etmədiyin kəs"** (əl-Ədəbul-Mufrəd, 792; Şəmailun-Nəbi, 241).

İmam Əhmədin rəvayət etdiyi hədisdə də Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ kimdənsə bir xəbər gözlədikdə, Tərfənin bu şeirini deyərmiş" (Musnəd" əsərində, 6/31; Silsilə əl-Əhadis əs-Səhihə, 2057). Bu şeir parçası, Tərfə ibn Abdın şeiridir (Bax: Divan, 96; Şərh əl-Qəsaid əl-Məşhura, 1/94). Tərfə ibn Abd isə Peyğəmbərdən ﷺ əvvəl yaşamış, cahiliyyət dövrünün şairlərindəndir.

Digər hədisdə də xəbər verilir ki, Şərid ibn Suveyd رضي الله عنه demişdir: "Bir dəfə mən Peyğəmbərin ﷺ tərkində ikən, o, mənə dedi: **"Umeyyə ibn Əbu Səltin şeirlərindən əzbər bildiyin varmı?"** Mən: "Bəli!"– deyib, ona Umeyyənin şeirlərindən bir beyt oxudum. Peyğəmbər ﷺ mənə: **"Davam et!"**– deyə buyurdu. Nəhayət, mən ona yüz beyt oxudum" (Buxari, əl-Ədəb əl-Mufrad, 799; Səhih Muslim, 2255).

Umeyyə ibn Əbu Səlt əs-Səqəfi İslam dininin gəldiyi dövrdə yaşamış, lakin islamı qəbul etməmiş və müşrik olduğu halda vəfat etmişdir. (əl-Bidayə vən-Nihayə, 2/285).

# Əməlisaleh sələflərə verilmiş digər adlar

## 1. "Əhlu-sünnə vəl-cəmaə"

Ərəbcədən tərcümədə "Əhlu-Sünnə vəl-Cəmaə", sünnəyə tabe olan bir camaat deməkdir. Bunun əksi, yəni sünnədən kənara çıxanlar isə "Əhlul-bidəti vəl-furqa", yəni bidət edib firqələrə bölünənlər adlanırlar. Haqq yolda olan möminlərə verilən "Əhlu-sünnə vəl-cəmaə" adı, məhz səhih hədislərdən götürülmüşdür. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Məndən sonra həyatda qalanlarınız çoxlu ixtilaflar görəcəklər. Belə olduğu təqdirdə siz mənim sünnəmə və raşidi xəlifələrimin sünnəsinə tabe olun."**[1]

Digər hədisdə də Peyğəmbər ﷺ belə demişdir: **"Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, onların birindən başqa hamısı Cəhənnəmə girəcək."** Səhabələr رضي الله عنهم: "Kimlərdir Cənnətlik olanlar, ya Rəsulullah?"– deyə soruşdular. Peyğəmbər ﷺ dedi: **"Bu, camaatdır."**[2]

## 2. "əl-Firqa ən-Naciyə"

Ərəbcədən tərcümədə "əl-Firqa ən-Naciyə", nicat tapmış firqə deməkdir. Yuxarıda qeyd etdiyimiz hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ İslam ümmətinin yetmiş üç firqəyə bölünəcəyini və bu firqələrdən yalnız birinin nicat tapacağını, yəni Cəhənnəm odundan xilas olacağını xəbər vermişdir. Yəni, Peyğəmbərin ﷺ və onun səhabələrinin رضي الله عنهم yolunu gedənlər,

---

[1] Sunən Əbu Davud, 4607; Sunən ət-Tirmizi, 266.

[2] Sunən Əbu Davud, 2/503-504; Musnəd İmam Əhməd, 4/102; Silsilə əl-Əhadis əs-Səhihə, 204.

məhz onlar Qiyamət günü nicat tapacaqlar. Elə bu səbəbdən də, camaat şəklində sünnəyə tabe olan sələflər "**nicat tapmış**" firqə sayılırlar. Quranda da uca Allah bu firqəni belə tərifləyir:

﴿ وَمَن يَتَوَلَّ ٱللَّهَ وَرَسُولَهُۥ وَٱلَّذِينَ ءَامَنُوا۟ فَإِنَّ حِزْبَ ٱللَّهِ هُمُ ٱلْغَٰلِبُونَ ﴾

**"Kim Allahı, Onun rəsulunu və iman gətirənləri *özünə* dost tutarsa, *bilsin ki,* qələbə çalanlar da məhz Allahın firqəsidir."**[1]

### 3. "ət-Taifə əl-Mənsura"

Ərəbcədən tərcümədə "ət-Taifə əl-Mənsura", qalib gələn dəstə deməkdir. Peyğəmbərin ﷺ və səhabələrinin رضي الله عنهم yolunu gedən möminlərə verilən bu ad, səhih hədisdən götürülmüşdür. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Qiyamətədək,** *hər dövrdə daim* **mənim ümmətimdən qalib gələcək bir dəstə olacaq. Bu dəstəyə pislik etmək istəyənlər onlara heç bir zərər yetirə bilməyəcəklər."**[2]

Digər hədisdə o ﷺ demişdir: **"Qiyamətədək,** *hər dövrdə* **mənim ümmətimdən haqq yolda sabit qalan bir dəstə olacaq. Bu dəstəyə pislik etmək istəyənlər onlara heç bir zərər yetirə bilməyəcəklər."**[3]

İndiki dövrdə az sayda olan bu möminlər barədə Peyğəmbər ﷺ belə demişdir: **"İslam dini qərib olaraq başlamış və yenə başlanğıcda olduğu kimi qəribliyə qayıdacaq. O dövrdə yaşayacaq qəriblərin xoş halına!"**[4] Səhabələr رضي الله عنهم

---

[1] əl-Maidə, 56.

[2] Sunən ət-Tirmizi, 6778; Musnəd İmam Əhməd, 3/436 və 5/35; Silsilə əl-Əhadis əs-Səhihə, 403.

[3] Səhih əl-Buxari, 7311; Səhih Muslim, 1920.

[4] Səhih Muslim, 145.

soruşdular: "Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: **"Onlar, qoyub getdiyim sünnədə insanların dəyişdirdiklərini düzəldən kimsələrdir."**[1]

Başqa bir rəvayətdə deyilir ki, səhabələr رضي الله عنهم Peyğəmbərdən ﷺ: "Kimlərdir o qəriblər, ya Rəsulullah?"– deyə soruşduqda, Peyğəmbər ﷺ demişdir: **"Çoxlu fasiqlər arasında, az sayda olacaq əməlisaleh insanlardır. *Həmin vaxt*, bu qəriblərə qarşı çıxanların sayı onlara qulaq asanlardan çox olacaq."**[2]

---

[1] Sunən ət-Tirmizi, 2/104; Silsilə əl-Əhadis əs-Səhihə, 1273.
[2] İbn Mubarək, əz-Zuhd, 2/90; Silsilə əl-Əhadis əs-Səhihə, 1619.

# Sələfilərlə xəvariclər arasındakı əsas fərqlər

| | Sələfilər | Xəvariclər |
|---|---|---|
| 1 | Müsəlmanların rəhbərlərinə itaət edirlər və onları kafir saymırlar. | Müsəlmanların rəhbərlərini kafir sayır və onları qeyri-müsəlmanlardan daha pis hesab edirlər. |
| 2 | Günah işlərdə itaət istisna olmaqla əmr sahiblərinə itaəti vacib sayır və bildirirlər ki, günah işlərdə əmirlərə tabe olmamaq, onlara qarşı çıxmağa rəvac vermir. Əksinə, onlara hikmətlə və əxlaqla, imkan daxilində nəsihət etmək gərəkdir. | Rəhbərləri ümumiyyətlə əmr sahibi hesab etmir və onlara itaət etmirlər. Əksinə, onları tağut hesab edərək, onlara qarşı çıxmağı vacib hesab edirlər. |
| 3 | Əmr sahiblərinin qanını axıtmağı haram sayırlar. | Əmr sahiblərinin qanını axıtmağı  halal hesab edirlər. |
| 4 | İslam ölkələrindəki polisi, ordunu və hüquq-mühafizə orqanlarının əməkdaşlarını kafir saymır və etiqad edirlər ki, onların canı və qanı toxunulmazdır. | Polisi, ordunu və hüquq- mühafizə orqanlarının əməkdaşlarını kafir sayır və etiqad edirlər ki, onların qanının axıdılması icazəlidir və iddialarına görə bu, Allaha itaət etmək sayılır. |
| 5 | Etiqad edirlər ki, radikal şəxslərin müsəlman ölkələrində apardıqları döyüşlər şəri cihad deyil, əksinə, fəsaddır. | Etiqad edirlər ki, onların İslam ölkələrinədə hakimiyyət və xalqa qarşı apardıqları mübarizə cihaddır. |
| 6 | Etiqad edirlər ki, müsəlman ölkələri bu gün İslam diyarı sayılır. | Etiqad edirlər ki, bütün müsəlman ölkələri bu gün küfr diyarı sayılır. |

| | | |
|---|---|---|
| 7 | Rəhbərlər üçün xeyir-dua etməyi, onların islah və şəriətlə hökm verməyə müvəffəq olmalarını diləməyi sünnə hesab edirlər. | Rəhbərlərə yalnız bəddua edir, onları kafir hesab edirlər. Belə olduğu halda, kafir olan kəsin Allahın şəriəti ilə hökm verməsi üçün dua edilməsini doğru hesab etmirlər. |
| 8 | İnqilab, çevriliş və mitinqlərə qatılmırlar. Çünki sələflərin məqsədi insanları zülmətlərdən nura, qula ibadətdən Allaha ibadətə, batil dinlərin zülmündən İslamın ədalətinə çıxartmaqdır. Bunun da yolu rəhbərə və rəiyyətə dua etmək, Allahın yoluna hikmətlə və gözəl sözlərlə dəvət etmək, lazım gəldikdə gözəl bir tərzdə mübahisə etməkdir. Onların hədəfi insanların səslərini əldə edərək vəzifə kürsüsündə oturmaq deyildir. | Etiqad edirlər ki, inqilab etmək, mövcud hakimiyyəti dəyişdirmək, mitinqlərə qatılmaq şəri cəhətdən vacibdir. Sələflərin tövhidə, sünnəyə və təhlükəsizliyin qorunmasına çağırışları isə murciəlikdir, zəlillikdir və rəhbərə yaltaqlanmaqdır. |
| 9 | İnsanları rəhbərlərə itaət etməyə və onlara qarşı çıxmamağa dəvət edirlər. Onların etiqadına görə şəri camaat, müsəlman rəhbərin başçılığı altında birləşən kəslərdir. Bu camaata qarşı çıxmaq cinayət, zəlalət və cahillik hesab olunur. | İnsanlara terror törədən başçılara itaət etməyi, müsəlman ölkələrindəki rəhbərlərə qarşı çıxmağı əmr edirlər. Onların fikrincə camaat yalnız onlara tabe olanlardır. Kim onların camaatından çıxarsa, qanı halaldır. |
| 10 | Müsəlmanlarla əhd bağlanmış və aman verilmiş kafirləri öldürməyi haram hesab edirlər. | Müsəlmanlarla əhd bağlanmış və aman verilmiş kafirlərin qanlarını halal sayır və onların qətlə yetirilmələrini vacib hesab edirlər. |

| | | |
|---|---|---|
| 11 | Qoyulmuş qanunlara şəriət baxımından münasibət göstərirlər. İnsanların mənafeyinə xidmət edən adminstrativ qanunlara itaət etməyi vacib görürlər. | Etiqad edirlər ki, qoyulmuş qanunlar cəhalət, zəlalət və böyük küfrdür və kim bu qanunlarla hökm verərsə, böyük küfr etmiş olur. |
| 12 | Müsəlman ölkələri ilə qeyri-müsəlman ölkələri arasında dünyəvi işlərdə əlaqələr yaradılmasının haram olmadığını deyirlər. Yalnız şəriətə müxalif olan sazişlər istisnadır. | Müsəlman ölkələri ilə qeyri-müsəlman ölkələri arasında dünyəvi işlərldə əlaqələr yaradılmasının haram olduğunu deyir və bunu müşriklərlə dostluq etmək və küfr hesab edirlər. |
| 13 | Şəriətə müxalif olmayan işlərdə cəmiyyətlə ayaqlaşmağı bəşər həyatının tələblərindən hesab edirlər. | Cəmiyyəti tərk etməyə, insanlardan uzaqlaşmağa səsləyirlər. |
| 14 | İslam dininə qarşı vuruşmayan, dünyəvi baxımdan da onlara zülm etməyən qeyri-müsəlmanlara yaxşılıq etməyi caiz görürlər. Bu xüsusda, Quranda belə buyurulur: **“Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir.”**[1] | Etiqad edirlər ki, heç bir halda qeyri-müsəlmana yaxşılıq etmək, habelə, onlarla ədalətli davranmaq icazəli deyildir. |

[1] “əl-Mumtəhənə” surəsi, 8.

| | | |
|---|---|---|
| 15 | Onları kafir sayan müsəlmanları kafir saymırlar. Ancaq Allah və Rəsulunun ﷺ kafir saydığı kimsələri kafir hesab edirlər. Xətanı xəta ilə, təkfiri isə təkfirlə qarşılamır, bidəti sünnətlə, səhvi doğru ilə, zülmü ədalətlə, asiliyi də itaətlə rədd edirlər. Müsəlmanlar arasında Allaha asi olan kimsələrlə Allahdan qorxaraq davranırlar. | Xəvariclər sələfləri kafir hesab edir, onların mürtəd olduqlarını iddia edir və onları başlarını kəsməklə hədələyirlər. |
| 16 | Sələflər əmin-amanlığın təmin edilməsinə səbəbdirlər. Nəfsinin istəyinə uyan kimsələri sakitləşdirir, onlara İslama necə qulluq etmələrini öyrədirlər. Onlar bunu peyğəmbərlərin yoluna uyğun şəkildə edirlər. | Onlar qarışıqlıq və hərcmərclik səbəbidirlər. Ağlı kamil olmayan, səfeh gəncləri qan tökməyə həvəsləndirir, müsəlmanları İslamdan necə kənarlaşdırmağı, sonra da xəvariclərin mənhəcinə uyğun şəkildə onları necə qətlə yetirməyi öyrədirlər. |
| 17 | Böyük, məşhur və Rəbbani alimlərə əsaslanırlar. | Yalnız özlərinə sərf edən fətvalar verən kimsələrə istinad edirlər. |
| 18 | İnsanlar üçün rəhmət və hidayət yoludurlar. Onlar haqqı ən yaxşı bilən, məxluqata qarşı isə ən mərhəmətli olanlardır. | Müsəlmanları qətlə yetirmək üçün gəlmiş və onlara qarşı ən sərt mövqedə olanlardır. |
| 19 | Sələflər müsəlmanlara fayda vermiş, İslamı insanlara sevdirərək onların qəlblərində bəzəmişlər. | Xəvariclər müsəlmanların nüfuzuna xələl gətirmiş və insanlarda İslama qarşı nifrət oyatmışlar. |
| 20 | Etiqad edirlər ki, hər küfr edən adam kafir olmur. | Etiqad edirlər ki, küfr etmiş hər kəs kafir olur. |

| | | |
|---|---|---|
| 21 | İnsanları kafir saymaq və həddi aşmaq məsələsində ən ehtiyatlı olan kəslərdir. | Təkfir məsələsində həddi aşmışlardır. |
| 22 | Apardıqları dəvətdə həddi aşmaqdan tamamilə uzaqdadırlar. Çünki onlar bu mənhəci Allahın kitabından və səhih sünnədən götürmüşlər. Bu, orta bir mənhəcdir və səhabələrin ﷺ yoludur. | Dəvətləri, həddi aşmış bir dəvətdir. Belə ki, bu mənhəci əvvəlki xəvariclərdən və müasir həddi aşmış kəslərin kitablarından götürmüşlər. |
| 23 | Apardıqları dəvət rəhbərlərin və rəiyyətin dini və dünyəvi cəhətdən islah olunmasına xidmət edir. | Həm dini, həm də dünyəvi cəhətdən qətl, məhv etmək və dağıtmaqla məşğuldurlar. |
| 24 | Tutduqları yol müsəlmanların ucalmaları, düşmənlərinin isə alçalmalarına xidmət edən elm və hikmət yoludur. | Tutduqları yol müsəlmanların zəlil olmaları, müşrik və kafirlərin isə ucalmaları, gəlib müsəlman ölkələrini əsarət altına almaları üçün ən münasib yoldur. |
| 25 | Hədəfləri insanlara Allahı tanıtmaq, Ona ibadət etmələrinə və şirkdən uzaqlaşmalarına çalışmaqdır. | Hədəfləri insanları rəhbərlərə qarşı qaldırmaq və onlara qarşı hazırlamaqdır. |

## Səhabələrin رضي الله عنهم dövründə olduğu kimi, bir camaat olmaq üçün nə etməliyik?

Əziz müsəlmanlar! Əgər biz Peyğəmbərimizin ﷺ və səhabələrinin رضي الله عنهم dövründəki kimi mehriban bir camaat olmaq istəyiriksə, İslam dinini onların yaşadığı kimi yaşamalıyıq. Yəni dinə aid məsələlərdə yalnız Quran və sünnəni özümüzə rəhbər tutmalı, ayələri və hədisləri səhabələrin رضي الله عنهم başa düşdüyü kimi qəbul etməli, onlardan sonra gəlib-getmiş alimlərin yekdil rəyini (icmanın və ya cumhurun rəyini)[1] fərdi rəylərdən üstün saymalı, eyni zamanda çoxluğun rəyinə müxalif olan fərdi rəylərə də ehtiramla yanaşmalı, fərdi rəylərə istinad edən müsəlmanlara xor baxmamalı və müsəlmanların birliyini dağıdan hər bir şərin qarşısını almaq üçün əlimizdən gələni etməliyik. Əks halda, böyük günah qazanmış olarıq. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Dində bidət edənə və bidətçiyə dəstək verənə, Allah lənət eləsin!”**[2]

Əgər bir adam özü bidət etməklə yanaşı başqalarını da, o bidətə dəvət edərsə, onların qazandıqları günah qədər günah qazanar. Bu xüsusda, Quranda belə buyurulur:

﴿ لِيَحْمِلُوٓاْ أَوْزَارَهُمْ كَامِلَةً يَوْمَ ٱلْقِيَٰمَةِ ۙ وَمِنْ أَوْزَارِ ٱلَّذِينَ يُضِلُّونَهُم بِغَيْرِ عِلْمٍ ۗ أَلَا سَآءَ مَا يَزِرُونَ ﴾

**“Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının**

---

[1] İcma: alimlərin hamısının, cumhur isə alimlərin əksəriyyətinin yekdil rəyi deməkdir.

[2] Səhih əl-Buxari, 1870; Səhih Muslim, 1366.

**bir qismini daşısınlar. Bax gör, daşıyacaqları yük necə də pisdir!"**[1]

Həmçinin, hədisdə Peyğəmbərimiz ﷺ belə demişdir: **"Kim İslam dininə yenilik gətirsə,** ***insanları buna təhrik etsə,*** **ona bunun günahı və ona əməl edənlərin günahı qədər günah yazılar."**[2]

Qeyd edək ki, bidət, İslam ümmətini parçalayan əsas amillərdən biridir. Odur ki, sünnə əhlinin bidətə göz yumması yol verilməzdir. Əksinə, bidəti camaata bəyan etmək hər bir elm əhlinin öhdəsinə düşən vacib əməldir. Məhz bidətlər meydana gəldikdən sonra Əhli-sünnə vəl-cəmaə firqələrə bölünmüşdür. Bidətin qardaşların arasını vurması xüsusunda rəvayət edilmiş ibrətamiz hədisdə Peyğəmbər ﷺ demişdir: "**Bir-birini Allah xatirinə sevən elə iki nəfər yoxdur ki, ikisindən birinin etdiyi bidət onların arasını vurmuş olmasın."**[3]

Diqqət edin! "əl-Ənam" surəsinin 153-cü ayəsində belə buyurulur:

﴿وَأَنَّ هَٰذَا صِرَٰطِي مُسۡتَقِيمٗا فَٱتَّبِعُوهُۖ وَلَا تَتَّبِعُواْ ٱلسُّبُلَ فَتَفَرَّقَ بِكُمۡ عَن سَبِيلِهِۦ﴾

**"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Belə ki, o yollar sizi Allahın yolundan uzaqlaşdırar".** Bu ayədə "başqa yollar" deyildikdə, sünnəyə müxalif olan yollar, yəni bidət əhlinin yolları nəzərdə tutulur.

Hədislərdə də Peyğəmbər ﷺ belə buyurmuşdur:

**"Mənim yolumdan çıxan kimsələr məndən deyildirlər".**[4]

---

[1] "ən-Nəhl" surəsi, 25.

[2] Səhih Muslim, 6975.

[3] Musnəd İmam Əhməd, 5/71.

[4] Səhih əl-Buxari, 5063.

**“Kim bizim bu dinimizə aid olmayan bir yeniliyi ona əlavə edərsə, o yenilik rədd edilər”.**[1]

**“Hər kim bizim dinimizdə olmayan bir əməl edərsə, bu əməl rədd edilər”.**[2]

Səhabələr رضي الله عنهم və onların yolunu tutub gedənlər də bidəti qətiyyətlə pisləmişlər. Aşağıdakı rəvayətləri buna misal çəkmək olar:

Abdullah İbn Ömər رضي الله عنهما demişdir: “İnsanlar bidəti yaxşı əməl hesab etsələr belə, hər bir bidət zəlalətdir.”[3]

Abdullah ibn Məsud رضي الله عنه demişdir: “Sünnəyə tabe olun, bidət etməyin. Bu, sizə yetər.”[4]

O, həmçinin, demişdir: “Sünnə sayılan əməllərdə orta yol tutmaq, dindən olmayan yeniliklərdə canfəşanlıq göstərməkdən xeyirlidir.”[5]

Ömər ibn Abdüləziz رحمه الله demişdir: “Sizə Allahdan qorxmağı və Onun əmrləri ilə kifayətlənməyi tövsiyə edirəm. Həmçinin, Peyğəmbərin ﷺ buyuruqlarına tabe olmağı və ondan sonra insanların etdiyi yenilikləri tərk etməyi tövsiyə edirəm.”[6]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bidət edən, yəni İslam dinində olmayan bir əməli edən adamın niyyəti yaxşı olsa

---

[1] Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

[2] Səhih Muslim, 1718.

[3] Şərh əl-İtiqad, əl-Lalakai, 126; Silsilətul-Əhadisis-Səhihə, 6/526.

[4] Sunən əd-Darimi, 205; Şoəbul-İman, 2024; Şərhus-Sunnə, 1/214; əl-İbanətul-Kubra, 174; Mənasikul-Həcc vəl-Umrə (əl-Albani), səh: 44.

[5] Mustədrək, 352; Sunən əl-Beyhəqi əl-Kubra, 4522; Silslətul-Əhadisis-Səhihə, 5/11.

[6] Hilyətul-Ovliya, 5/338; əl-İbanətul-Kubra, 163.

belə, onun bu əməli qəbul olunmur. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, Qurban günü Peyğəmbər ﷺ bayram namazından sonra səhabələrə رضي الله عنهم xütbə verdi və buyurdu: **“Kim bizim kimi namaz qılsa və bizim kimi qurban kəssə, qurbanlıq heyvanını şəriətə uyğun kəsmiş olar. Kim qurbanlıq heyvanı bayram namazından əvvəl kəsərsə, namazdan qabaq özü üçün heyvan kəsmiş olar və onun qurbanı qəbul olunmaz.”** Əbu Burdə ibn Niyar رضي الله عنه dedi: “Ya Rəsulullah, mən öz qoyunumu namazdan əvvəl kəsdim. Mən bilirdim ki, bu gün yemək-içmək günüdür, elə buna görə də istədim ki, mənim qoyunum evimdə kəsilən ilk qurbanlıq olsun. Odur ki, namaza gəlməmişdən əvvəl qoyunumu kəsib ondan bir az yedim.” Peyğəmbər ﷺ dedi: **“Sənin qoyunun ətlik qoyundur.”**[1]

Hədisdən aydın başa düşülür ki, niyyət gözəl olsa belə, yerinə yetirilən əməl şəriətə zidd olarsa, rədd edilər.

Peyğəmbər ﷺ öz səhabələrinə رضي الله عنهم istənilən əmri və ya qadağanı bir dəfə deyər, onlar da dərhal onun əmrini yerinə yetirər, qadağan etdiyi əməldən çəkinərdilər. Lakin bidətdən uzaq durmağı və Allahdan qorxmağı onlara daim xatırladardı, halbuki onlardan heç biri heç vaxt bilərəkdən bidətə yol verməmişdir. Peyğəmbər ﷺ İslam ümmətinin gələcək nəslini bidətdən çəkindirmək üçün belə etmişdir. İmam Muslimin رحمه الله rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **“Məndən əvvəl elə bir peyğəmbər olmayıb ki, ona, öz ümmətini özlərinin xeyrinə olan işlərə yönəltmək, habelə, onları özlərinin zərərinə olan işlərdən çəkindirmək buyurulmasın. Bu ümmətin**

[1] Səhih əl-Buxari, 955; Səhih Muslim, 1961.

**əvvəlinciləri xeyirə nail olacaq, axırıncılarının isə başına bəla gələcək, onlar sizin məqbul saymadığınız, şəriətə müxalif olan əməlləri** (bidətlər) **edəcəklər."**[1]

Peyğəmbərimiz ﷺ heç bir hədisdə "gözəl bidət" deyilən bir əməl olduğunu bildirməmiş, əksinə, səhih hədisdə bidətin zəlalət olduğunu bildirib: **"Əməllərin ən pisi *dinə əlavə edilən* yeniliklərdir. Hər bir yenilik bidətdir, hər bir bidət zəlalətdir və hər bir zəlalət Cəhənnəm oduna *aparan bir* səbəbdir"**[2] – demiş və heç bir istisna etməmişdir. Heç bir halda Peyğəmbərimiz ﷺ: "Filan gözəl bidətdən başqa bütün bidətlər zəlalətdir"– deməmişdir. Bu xüsusda, Malik ibn Ənəs رحمه الله demişdir: "Kim desə ki, İslam dinində gözəl bidət var, artıq o, Muhəmməd peyğəmbərin ﷺ Allahın dininə xəyanət etdiyini iddia etmiş sayılar. Belə ki, uca Allah buyurur:

﴿ٱلۡيَوۡمَ أَكۡمَلۡتُ لَكُمۡ دِينَكُمۡ وَأَتۡمَمۡتُ عَلَيۡكُمۡ نِعۡمَتِي وَرَضِيتُ لَكُمُ ٱلۡإِسۡلَٰمَ دِينٗا﴾

**"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim."**[3]

İmam Malik davam edib deyir: "Həmin gün hansı əməl dindən sayılırdısa, bu gün də, yalnız o əməl dindən sayılır."[4]

İmam Malik رحمه الله demək istəyir ki, Allah bu dini kamil şəkildə tamamladıqdan sonra kim bu kamil dində naqislik olduğunu iddia edərsə, Peyğəmbərin ﷺ dini tam şəkildə insanlara təbliğ etmədiyini iddia etmiş sayılar.

---

[1] Səhih Muslim, 1844.

[2] Sunən ən-Nəsai, 1/243; Xutbatul-Hacə, 1/25.

[3] "əl-Maidə" surəsi, 3.

[4] əl-İtisam, əş-Şatibi, 1/49.

Yaxşı bəs bidətlər meydana gəldiyi bu dövrdə biz nə edək ki, bir camaat olaq? Bu qəliz sualın cavabını Peyğəmbər ﷺ əvvəlcədən bizə bildirmişdir. Rəvayət edilir ki, Huzeyfə رضي الله عنه demişdir: "Bir gün mən: "Ya Rəsulullah, biz, həqiqətən də, cahillik və şər (şirk və küfr) içində yaşayırdıq. Allah bizə belə bir xeyir (İslam dinini) nəsib etdi. Bu xeyirdən sonra şər gələ bilərmi?"– deyə soruşdum. Peyğəmbər ﷺ: **"Bəli!"**– deyə cavab verdi. Mən soruşdum: "Bəs, bu şərdən sonra yenə xeyir gələcəkmi?" Peyğəmbər ﷺ dedi: **"Bəli, lakin bu xeyirə şər ləkəsi bulaşacaq."** Mən soruşdum: "O, nə ləkədir, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: **"Mənim yolumu tutub getməyən kimsələr olacaq. Onlar yaxşı işlər gördükləri kimi, pis əməllər də edəcəklər."**[1] Mən soruşdum: "Bəs, bu xeyirdən sonra şər gələcəkmi?" O, dedi: **"Bəli, həmin vaxt Cəhənnəmə çağıran azğın adamlar olacaq. Kim onların çağırışını qəbul etsə, Cəhənnəmə vasil olacaq."** Mən dedim: "Ya Rəsulullah, onları bizə vəsf et!" O, dedi: **"Onlar bizlərdən olacaq və bizim kimi danışacaqlar."** Soruşdum: "O vaxta qədər yaşasam, mən nə edim?" O buyurdu: **"Müsəlman camaatına qoşul və onların əmirinə tabe ol!"** Dedim: "Bəs onların nə bir camaatı, nə də bir imamı olmasa necə?" Buyurdu: **"Arxa dişlərinlə ağac kökündən yapışmış olsan belə, o firqələrin hamısından uzaq dur və ölüm səni haqlayanadək bu vəziyyətdə qal!"**[2]

Demək, bir camaat olmaq üçün, bidət əhlinin hamısından uzaq durub, Əhli-sünnə vəl-cəmaə ilə bir olmaq lazımdır.

---

[1] Burada İslam dininə ilk bidətləri gətirmiş xəvariclər, qədərilər, rafizilər, mötəzililər, cəhmilər və s. bidətçilər qəsd edilir.

[2] Səhih əl-Buxari, 3606 və 7084; Səhih Muslim, 1847.

Böyük tabiinlərdən olmuş Muhəmməd ibn Sirin ﷺ demişdir: “*Müsəlmanlar* isnad barəsində sual verməzdilər. Yeniliklər meydana gəldikdən sonra isə onlar: “Ravilərinizin adlarını bizə söyləyin”– deməyə başladılar. Beləcə, Sünnə əhlinə diqqət yetirilər və onların hədisləri qəbul edilər, habelə, bidət əhlinə diqqət yetirilər və onların hədisləri rədd edilərdi.”[1]

Demək, bir camaat olmaq üçün, mötəbər hədisləri uydurma hədislərdən ayırd etməli, mötəbər hədislərə istinad edən sələflərlə bir olub, uydurma hədislərə uyan bidətçilərdən uzaq durmaq lazımdır.

---

[1] Muqəddimətu Muslim, 27.

# Kitabdakı bəzi terminlərin izahı

**Cəhmilər:** Cəhm ibn Safvanın batil əqidəsinə tabe olan azğın firqə. Cəhm ibn Safvan hicri tarixlə ikinci əsrdə Xorasanda yaşamış, Quranın məxluq olduğunu iddia etmiş və Allahın sifətlərini inkar etmişdir. Cəhm ibn Safvan bu batil əqidəni Cəd ibn Dirhəmdən götürmüşdür. Deyilənə görə Cəd bu etiqadı Əban ibn Səmandan, o da, Talutdan, o da, Ləbid ibn Əsamdan götürmüşdür.[1]

**Ənsar:** İslamı qəbul etmiş və Peyğəmbərin ﷺ səhabələri رضي الله عنهم olmuş Mədinənin yerli sakinləri. Onlar Məkkədən və başqa şəhərlərdən gələn mühacirlərə sığınacaq vermiş və onlara maddi dəstək göstərmişlər.

**Ətbaut-tabiin:** Hər hansı bir tabiinlə görüşüb, İslam dinini qəbul etmiş və mömin olduğu halda dünyadan köçmüş kimsə.

**Xəvariclər:** Xəvaric, ərəbcə *xaracə* ( خَرَجَ ) felindən əmələ gəlmiş *xarici* sözünün cəmidir. *Xaracə* xaric olmaq, *xarici* isə xaric olan deməkdir. “Xəvaric” deyildikdə, müsəlman camaatından ayrılıb, özünə dəstə yaradan və ya belə bir dəstəyə qoşulan, dəlil-sübutsuz böyük günah sahibini kafir sayan, şəriətə zidd olan digər vəsfləri özündə cəm edən fasiqlər nəzərdə tutulur. Banisi Zul-Xuveysira olmuş bu firqə müsəlmanlar arasında meydana gəlmiş ilk firqələrdəndir. Onlar Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, İslam üçün canından və malından keçmiş, daim Peyğəmbərə ﷺ sadiq qalmış Osman ibn Affan رضي الله عنه və Əli ibn Əbu Talib رضي الله عنه kimi iki böyük səhabəni kafir sayıb şəhid etmişlər.

---

[1] Fətavə əl-Həməviyyə əl-Kubra, səh: 24.

Onlar böyük günah işləmiş müsəlmanları kafir hesab edən və onların qanını halal sayan firqədir. Peyğəmbər ﷺ xəvaricləri vəsf edərkən demişdir: **“Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcək”; “Onlar Allahın Kitabını məlahətli səslə oxuyacaq, lakin oxuduqları xirtdəklərindən o yana keçməyəcək. Ox öz ovunu dəlib keçdiyi kimi, onlar da İslamdan çıxacaqlar”; “Onlar bütpərəstləri qoyub, müsəlmanları öldürəcəklər.”**[1]

**Qədərilər:** Allahın hər bir şeyin qədərini əzəldən yazdığını inkar edənlər. Yəhya ibn Yəmər رحمه الله demişdir: “İlk dəfə qədər xüsusunda *küfr* danışan adam Bəsrədə yaşayan Məbəd əl-Cuhəni olmuşdur. O vaxt mən və Humeyd ibn Abdurrəhman əl-Himyəri رحمه الله həcc ziyarətinə getdik və: “Kaş Rəsulullahın ﷺ səhabələrindən رضي الله عنهم birinə rast gələydik və ondan bunların qədər haqqında söylədiklərini soruşaydıq”– dedik. Nəhayət, gəlib məscidə daxil olduqda, Abdullah ibn Ömər ibn əl-Xəttabı رضي الله عنهما görüb ona yaxınlaşdıq. Mən dedim: “Ey Əbu Abdurrəhman! Bizim tərəflərdə Quran oxuyan, elm öyrənməyə səy göstərən [və qədər xüsusunda açıqlanmamış məsələləri araşdırmağa çalışan] bir dəstə adam peyda olub. Onlar iddia edirlər ki, qədərin əzəldən yazılması cəfəngiyyatdır və Allah bütün işlərdən yalnız baş verdiyi an xəbər tutur”. İbn Ömər رضي الله عنهما dedi: “Onları görsən, de ki, mən onlardan uzağam, onlar da məndən uzaqdırlar! Allaha and olsun ki, əgər onlardan birinin Uhud dağı boyda qızılı olsaydı və o, bunu Allah yolunda xərcləsəydi, qədərə iman gətirməyincə Allah bu sədəqəni ondan qəbul etməzdi.”[2] Bu hədisdə adı hallanan Məbəd ibn

---

[1] Səhih əl-Buxari, 3611, 4351 və 6880.

[2] Səhih Muslim, 8.

Xalid əl-Cuhəni Allahın əzəldən yazdığı qədəri inkar etməklə dinə yenilik gətirmiş və bundan sonra "Qədərilər" firqəsi meydana gəlmişdir. Onlar hər şeyin müqəddəratının Allah tərəfindən əzəldən müəyyən edildiyini inkar etmiş və Allahın gələcəkdə baş verəcək hadisələrdən xəbərsiz olduğunu iddia etmişlər. Peyğəmbər ﷺ demişdir: **"Bu ümmətin məcusiləri Allahın qədərini inkar edənlərdir. Əgər xəstələnsələr, onlara baş çəkməyin, ölsələr, onların dəfnində iştirak etməyin!"**[1]

**Mötəzililər:** Motəzilə firqəsi ilk dəfə Bəsrədə, Vasil ibn Ətanın əqidə məsələsində öz müəllimi Həsən əl-Bəsrinin رحمه الله fikri ilə razılaşmayıb onun dərsini tərk etməsindən sonra meydana gəlmişdir. Bir gün Həsən əl-Bəsrinin رحمه الله dərs dediyi Bəsrə məscidinə gələn birisi böyük günah etmiş adama xəvariclərin kafir, murciələrin isə mömin dediklərini söyləyir və ondan bu məsələyə aydınlıq gətirməsini xahiş edir. Həsən əl-Bəsri رحمه الله belə bir adamın münafiq (dilində bir söz deyib, ürəyində ayrı şey etiqad edən, imanı ilə əməli bir-birinə uyğun gəlməyən) olduğunu bildirir. Bu zaman məclisdə iştirak edən Vasil ibn Əta böyük günah işləmiş adamın nə həqiqi mömin, nə də həqiqi kafir olduğunu, onun imanla küfr arasında (*mənzilətu beynəl-mənzilətеyndə*) qərar tutduğunu söyləyir. Bununla da Vasil böyük günah işləmiş adam barəsində o vaxta qədər İslam aləmində mövcud olan bütün fikirləri rədd edərək, yeni bir fikir irəli sürür. Bunu görən Həsən əl-Bəsri رحمه الله təəccüblə: "*Qad itəzələ annə Vasil* (Vasil bizdən ayrıldı)" deyir. Bundan sonra Vasil ibn Əta ustadı Həsən əl-Bəsrinin رحمه الله məclisini birdəfəlik tərk edir. Daha sonra isə dostu Amr ibn Ubeyd də ona

[1] Sunən Əbu Davud, 4691; Silsilə əl-Əhadis əs-Səhihə, 2748.

qoşulur. Beləliklə, Vasil ibn Ətaya və tərəfdarlarına “ayrılanlar”, “tərk edənlər” mənasında olan “əl-Mötəzilə” adı verilir.

Mötəzililər böyük günah işləmiş şəxs və imanın həqiqəti mövzusunda bir tərəfdən xəvariclərin, digər tərəfdən isə murciələrin əleyhinə çıxırlar. Xəvariclər imanı əməlin bir hissəsi hesab edirdilər. Başqa sözlə, xəvariclərin fikrincə, kəlmeyi-tövhidi təsdiq edib söyləyən bir kimsə şəriətin vacib buyurduğu şeylərdən birini yerinə yetirməsə, yaxud böyük bir günah etmiş olsa, kafir hesab edilir. Murciələr isə imanı mücərrəd bir etiqad halına gətirmişdilər. Onlar əməlin imanın bir hissəsi olmadığını, buna görə də böyük günah işləmiş (şirk və ya küfr etmiş) bir kimsənin imandan çıxmadığını iddia edirdilər.

Mötəzililər həmçinin İslamın əleyhinə çıxaraq Quranı məxluq (yaradılmış) hesab edir, bununla da Quranın Allahın əzəli kəlam sifəti olduğunu inkar edirdilər.

**Mühacirlər:** Məkkə fəth edilənə qədər, digər şəhərlərdən və vilayətlərdən Mədinəyə köçmüş (hicrət etmiş) Muhəmməd Peyğəmbərin ﷺ səhabələri رضي الله عنهم.

**Rafizlər:** Rafizilər Peyğəmbərin ﷺ əhli-beytini ifrat dərədə sevdiklərini iddia edir, bəziləri Əli ibn Əbu Talibi رضي الله عنه Peyğəmbərdən ﷺ üstün sayır, hətta bir qismi də Əli ibn Əbu Talibin رضي الله عنه Rəbb olduğunu iddia edirlər.

Rafizi kəlməsi ərəbcə ( رَفَضَ ) felinin məlum növündən əmələ gəlmiş feli isimdir. Bu kəlmə inkar etmək, rədd etmək, qəbul etməmək kimi mənaları ifadə edir.

Rafizi adlandırılmalarının səbəbi budur ki, onlar Zeyd ibn Əli ibn Huseyn ibn Əli ibn Əbu Talibdən, Əbu Bəkr رضي الله عنه və Ömərin رضي الله عنه barəsində soruşduqda Zeyd onların ikisini də

tərifləyib: “Onlar mənim babamın (yəni Peyğəmbərin ﷺ) ən yaxın məsləkdaşları olmuşlar”– demiş, elə bu səbəbdən də onu tərk edib getmiş və inkar etmişlər.[1]

**Səhabə:** Allahın rəsulu Muhəmməd ibn Abdullah ﷺ ilə görüşüb ona iman gətirmiş, onun dəvət etdiyi dini qəbul etmiş və mömin olduğu halda dünyadan köçmüş kimsə.

**Tabiin:** Hər hansı bir səhabə ilə görüşüb, İslam dinini qəbul etmiş və mömin olduğu halda dünyadan köçmüş kimsə.

[1] Məcmu Fətava və Rəsail, 4/201.

# Mündəricat

Müqəddimə ....................................................................................3
Sələf sözünün anlamı ........................................................................5
"Sələf" sözünün qədimdən bəri istifadə edilməsi ..............................13
Sələfləri misal çəkən bəzi alimlər ......................................................20
Əməlisaleh sələflərə verilmiş digər adlar ............................................27
Sələflərlə xəvariclər arasındakı əsas fərqlər .......................................30
Səhabələrin رضي الله عنهم dövründə olduğu kimi, bir camaat olmaq üçün nə etməliyik? ......................................................................35
Kitabdakı bəzi terminlərin izahı .........................................................42

# Qeydlər üçün